# URMİYA GÖLÜ FACİƏSİ CƏNUBİ AZƏRBAYCAN POETİK FİKRİNDƏ

**Fikrət Süleymanoğlu**

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı*
*fikret55@mail.ru*

Sahəsi bir vaxtlar 6000 km²-ə yaxın olan, UNESCO-nun qorunan təbii əraziləri siyahısına daxil edilmiş Urmiya/Urmu gölünün sürətlə quruması yalnız bölgənin fauna və florasına deyil, həm də regionda yaşayan insanların həyatına və təsərrüfat fəaliyyətinə ciddi təsir göstərməkdədir. Belə ki, İranın Şərqi Azərbaycan və Qərbi Azərbaycan vilayətlərinin sərhədində yerləşən bu gölün səviyyəsinin aşağı düşməsinin nəticələri naviqasiyaya, balıqçılığa və turizmə dəyən ölümcül zərbə ilə yanaşı, həm də özünü qurumuş sahələrdə əmələ gələn böyük miqdarda duz tozunun küləklə təhlükəli şəkildə ətraf ərazilərə sovrulmasında göstərir.

Urmiya gölünün sürətlə quruması, bunun səbəbləri və facəvi nəticələri ilə bağlı mübahisələr hazırda Cənubi Azərbaycanda ictimai fikri ana dilinin hüquqları uğrunda mübarizədən sonra ən çox məşğul edən problemdir. Azərbaycan türk toplumunun düşüncəsinə görə, bu hadisə sıradan ekoloji bir məsələ deyil, birmənalı olaraq bölgə insanının bugünkü və gələcək nəsillərinin həyatını təhlükə altına alan, həlli dövlət ciddiyyəti tələb edən humanitar fəlakətdir.

Gölə tökülən çayların üzərində inşa edilən su anbarlarının, su resurslarından israfçılıqla istifadənin, ekstensiv əkinçiliyin də bu faciədə böyük rol oynadığı təkzibedilməz faktlardır. Təbii olaraq problem hazırda yalnız siyasi, hüquqi və ekoloji müstəvidə deyil, həm də ədəbi müstəvidə müzakirə olunmaqdadır. Cənubda şairlər bu məsələyə siyasətçilərdən, hüquqçulardan və ekoloqlardan fərqli olaraq, həm də əxlaqi və mənəvi müstəvidə qiymət verir, məsuliyyət sahiblərini öz rəsmi və insani borclarını yubanmadan yerinə yetirməyə, gölü xilas etməyə çağırırlar. Hazırda Urmiya gölünün qurumasına poetik münasibət ən müxtəlif formalarda özünü göstərir.

Məlumdur ki, Cənubi Azərbaycanın bərəkətli torpaqlarının əhatəsində yerləşən Urmiya gölü Nazlıçay, Acıçay, Sofuçay və Cığatuçay başda olmaqla bir çox çayların suyu ilə qidalanır. Dəniz səviyyəsindən 1275 metr yüksəklikdə yerləşən, gözəl təbiəti, zığının və duzlu suyunun müalicəvi özəlliyi ilə məşhur olan bu göl yaz və yay aylarında yalnız təbiətsevərləri deyil, həm də saysız-hesabsız turistəri bölgəyə cəlb etmişdir. Bir sözlə, uzun illər boyu şəninə:

Yeri var Ay səni öpmək üçün göydən yerə ensin,
Ətəyin içrə göy ulduzları xəlbirdən ələnsin,
Ayağın altında fərşi-zümürüd səpələnsin,
Səndədir nazlı Günəş, qoy sənə Ay, Gün də güvənsin. [1]

– deyə, şeirlər və poemalar yazılan, türkülər oxunan Urmiya gölünə indi ağılar söylənməkdədir. Sən demə, "tufanların yıxa bilməyəcəyi, yelin və selin bata biməyəcəyi" bu "təbiət gözəli"ni insan laqeydliyi yıxa bilərmiş. Ona görə də zaman-zaman gölün ətrafını dövrələyən bəyaz duz təbəqələrini onun gəlinlik donu kimi təsvir edən, həyatı gölün yamyaşıl, bağlı-bağçalı sahillərində keçən Urmiyalı şair Kərim Güləndam atrıq dörd yanı səhralaşmaqda olan "nazlı gözəl"in son halını görüb bu bəyaz örtüyü kəfən adlandırır:

Nazlı gölüm,
elə bildim gəlin donu geyinmisən!
Kor olaydım,
ağ kəfənə bürünmüsən! [2]

Eyni hisləri şair Qurban Vəlizadə də paylaşır, uca dağların qoynuna sığınmış, yamyaşıl adalarında fərqli-fərqli köçəri quşlar yuva salan gölün yenidən göz oxşayan göy donunu – su donunu geyinib əvvəlki halına qayıtmasını istəyir:

Ağ donu geymə əyninə,
Kəfən kimi gəlir sənə,
Göy donunu gey sən yenə,
Urmu gölü, Urmu gölü! [3]

Məsud Şəriətinin "Urmu dəryaçasıyam" adlı şeirində harayına kimsə səs verməyən, susuzluğuna kimsə inanmayan Urmu gölünün özü danışır:

Qurusam ağ saçım yolsam,
Külü başıma sovursam,
Tutar ahım nə ki vardır,
O nə dağdır, bu nə dağdır!
Məhv olar nə ki vardır!
Səslirəm hey susuzam kimsə,
Kimsə inanmır. [4]

Amma gölün xilas edilməsi üçün nicatı Yaradanda axtaranlar da var. Baba Əli Cavanmərd gölün xilası üçün artıq Allahı köməyə çağırır:

Urmu dənizi can üstündədir,
Özün gəl haraya, ey qadir Allah!
Qoyma nakam ölə, rəhm eləginən,
Bu duzlu dəryaya, ey qadir Allah! [5]

Qoşaçaylı şairin bu çağrışına istər Şimali Azərbaycandan, istərsə də türk dünyası şairlərindən də dəstək gəlir. Gölün faciəsini ümumtürk faciəsi kimi qəbul edən Kərküklü şair Salah Bəhlul Camurcu Urmiya gölünə xəyanət edənlərə bəddua etməkdən belə çəkinmir:

Sular bulanır durur,
Urmunu Allah qorur.
Kim bizə xain çıxar,
Allahdan lənət bulur! [6]

Bütün bu qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, Cənubda şairlər Urmiyanın xilası uğrunda mübarizənin ön sırasındadırlar. Onların əsərləri həm İranda, həm də türk toplumlarının yaşadığı digər ölkələrdə ictimai fikrin bu problemin həllinə yönəlik səfərbərliyində, onun yeni çağrışlara cavab verəcək səviyyədə formalaşdırılmasında mühüm rol oynayır. Cənublu şairlər problemin həlli üçün yeni-yeni əsərləri ilə bu yolda hər cür fədakarlığa daim hazır olduqlarını nümayiş etdirirlər.

**Ədəbiyyat:**

1. Sözdən asılan arzular (nəşrə hazırlayan Esmira Fuad). Bakı: Elm və təhsil, 2016.
2. Türkün ilk beşiyi – sevgi ocağı – Urmu şeir antologiyası (nəşrə hazırlayan Esmira Fuad). Bakı: Elm və təhsil, 2016, s. 289.
3. Yenə orada, s. 308.
4. Yenə orada, s. 267.
5. Yenə orada, s. 252.
6. Yenə orada, s. 310.